**Orhan Pamuk**

# MƏSUMİYYƏT MUZEYİ

Tərcüməçi:
Könül Əliyeva

qanun nəşriyyatı

**Orhan Pamuk**

# MASUMİYET MÜZESİ

“Həyatımın ən xoşbəxt anıymış, bilmirdim...”

Gözəl eşq romanı “Məsumiyyət muzeyi” bu sözlərlə başlayır. 1975-ci ilin bir yaz günü başlayıb indiyəcən davam edən istanbullu varlı gənc Kamalla onun uzaq və yoxsul qohumu Füsunun hekayəsi sürəti, hərəkəti, hadisələrinin və qəhrəmanlarının zənginliyi, yumor hissi və insan ruhunun dərinliklərindəki fırtınaları hiss etdirmə gücüylə əlinizdən yerə qoymayacağınız və təkrar-təkrar oxuyacağınız kitablardan biri olacaq.

Romanı oxuyarkən yalnız eşqlə deyil, evlilik, dostluq, intim münasibətlər, şəhvət, ailə və xoşbəxtliklə bağlı bütün düşüncələrinizin yerindən oynadığını və hekayənin cazibəsindən heç ayrılmaq istəmədiyinizi görəcəksiniz.

“Məsumiyyət muzeyi” oxucularına unudulmaz yuxular kimi yaddan heç çıxmayacaq sarsıdıcı bir hekayə danışır.

# MÜNDƏRİCAT

1. Həyatımın ən xoşbəxt anı ........................................... 9
2. "Şanzelize butik" ........................................................ 11
3. Uzaq qohumlar ........................................................... 15
4. Ofisdə sevişmək ........................................................ 19
5. "Fuaye" restoranı ........................................................ 22
6. Füsunun göz yaşları .................................................. 25
7. "Mərhəmət" binası ...................................................... 32
8. İlk türk limonadı ........................................................ 39
9. Füsun ............................................................................ 41
10. Şəhər işiqları və xoşbəxtlik ...................................... 47
11. Qurban bayramı ........................................................ 50
12. Dodaqdan öpüşmək ................................................... 60
13. Eşq, cəsarət, modernlik ............................................ 69
14. İstanbulun küçələri, körpüləri, yoxuşları, meydanları ... 76
15. Bəzi xoşagəlməz antropoloji həqiqətlər .................... 84
16. Qısqanclıq ................................................................ 89
17. Artıq bütün həyatım sənin həyatına bağlıdır ............. 94
18. Bəlqizin hekayəsi ...................................................... 101
19. Dəfn mərasimində ...................................................... 109
20. Füsunun iki şərti ....................................................... 114
21. Atamın hekayəsi: mirvari sırğalar ............................ 118

22. Rəhmi əfəndinin əli ........................................................ 129
23. Səssizlik ......................................................................... 133
24. Nişan ............................................................................. 138
25. Gözləmək əzabı ............................................................. 192
26. Eşq əzabının anatomik vəziyyəti .................................. 196
27. Sallanma, yıxılarsan ..................................................... 202
28. Əşyaların təsəllisi.......................................................... 206
29. Artıq onu düşünmədiyim dəqiqə heç yoxdu ............... 211
30. Füsun artıq yoxdur ........................................................ 214
31. Onu mənə xatırladan küçələr ........................................ 218
32. Füsun olduğunu düşündüyüm kölgələr, qarabasmalar.. 220
33. Kobud başqatmalar ........................................................ 224
34. Kosmosdakı it kimi ........................................................ 230
35. Kolleksiyamın ilk nüvəsi ............................................... 236
36. Eşq əzabımı yüngülləşdirəcək kiçik bir ümid üçün .. 239
37. Boş ev ............................................................................. 245
38. Yay sonu qonaqlığı ........................................................ 248
39. Etiraf ............................................................................... 254
40. Dənizkənarı ev həyatının təsəllilləri ............................ 259
41. Arxasıüstə üzmək........................................................... 262
42. Payız hüznü ................................................................... 265
43. Soyuq və tənha noyabr günləri .................................... 274
44. “Fateh” hoteli ................................................................ 280
45. Uludağ tətili ................................................................... 287
46. İnsanın nişanlısını ortada qoyması normaldırmı? ..... 291
47. Atamın ölümü ................................................................ 299
48. Həyatda ən vacib şey xoşbəxt olmaqdır ..................... 308
49. Ona evlənmək təklif edəcəkdim ................................. 314
50. Bu, mənim onunla son görüşümdür ........................... 327

51. Xoşbəxtlik yalnız insanın sevdiyi adama yaxın olmasıdır ........................................................................ 338
52. Həyat və əzablar haqqında bir film səmimi olmalıdır 347
53. Qırılan ürəyin ağrısının və küskünlüyün kimsəyə faydası yoxdur ........................................................................ 360
54. Zaman ........................................................................ 373
55. Sabah yenə gəlin, yenə oturarıq ................................ 383
56. Limon film t.a.ş. ........................................................ 397
57. Qalxıb gedə bilməmək ............................................... 407
58. Loto ............................................................................ 421
59. Senzuradan ssenari keçirmək ..................................... 437
60. "Hüzur" restoranında boğaz gecələri ........................ 447
61. Baxmaq ....................................................................... 457
62. Vaxt keçsin deyə ........................................................ 465
63. Dedi-qodu sütunu ........................................................ 476
64. Boğazda yanğın ........................................................... 487
65. İtlər ............................................................................. 495
66. Bu nədir ? ................................................................... 502
67. Odekolon .................................................................... 507
68. 4213 siqaret kötüyü .................................................... 520
69. Bəzən .......................................................................... 527
70. Sınıq talelər ................................................................ 535
71. Artıq heç gəlmirsiniz, Kamal bəy ............................. 543
72. Həyat da eynilə eşq kimidir........................................ 554
73. Füsunun sürücülük vəsiqəsi ....................................... 560
74. Tarıq bəy .................................................................... 579
75. İnci şirniyyat evi ........................................................ 594
76. Bəyoğlu kinoteatrları ................................................. 603
77. "Böyük Semiramis hoteli" ......................................... 615

78. Yay yağışı ........................................................ 626
79. Başqa bir dünyaya səyahət ........................................ 633
80. Qəzadan sonra ........................................................ 642
81. Məsumiyyət muzeyi .................................................. 649
82. Kolleksiyaçılar ........................................................ 660
83. Xoşbəxtlik ................................................................ 670

# 1. HƏYATIMIN ƏN XOŞBƏXT ANI

Həyatımın ən xoşbəxt anıymış, bilmirdim. Bilsəydim, bu xoşbəxtliyi qoruyar, hər şey tamamilə fərqli ola bilərdimi? Bəli, bunun həyatımın ən xoşbəxt anı olduğunu anlaya bilsəydim, əsla əlimdən buraxmazdım o xoşbəxtliyi. Dərin bir hüzurla hər yerimi bürüyən o möhtəşəm qızıl an bəlkə bir neçə saniyə davam etmişdi, amma xoşbəxtlik mənə saatlarla, illərlə davam etmiş kimi gəlmişdi. 26 may 1975-ci il, bazar ertəsi günü, saat üçə təxminən 15 dəqiqə qalmış biz bir anlığa cinayətdən, günahdan, cəzadan və peşmanlıqdan qurtulduğumuz kimi, dünya da yerin cazibəsindən və zamanın qaydalarından qurtulmuşa bənzəyirdi. Füsunun istidən və sevişməkdən tərləmiş çiynini öpmüş, ona arxadan yavaşca sarılmış, içinə girmiş və sol qulağını yüngülcə dişləmişdim ki, qulağındakı sırğa açıldı və bir müddət sanki havadan asılı qalandan sonra yerə düşdü. O qədər xoşbəxt idik ki, o gün formasına heç diqqət yetirmədiyim o sırğanın düşməyinə heç birimiz fikir vermədik və öpüşməyə davam etdik.

Bayırda İstanbulun bahar günlərinə xas parlaq səma vardı. İsti hava qış vərdişlərindən xilas ola bilməmiş istanbulluları tərlədirdi, amma binaların içi, dükanlar, cökə və şabalıd ağaclarının kölgəsi hələ sərindi. Üstündə qayğısız uşaqlar kimi, hər şeyi unudaraq sevişdiyimiz kif qoxulu döşəyin içindən də buna oxşar bir sərinliyin gəldiyini hiss edirdik. Açıq pəncərədən dəniz və cökə qoxuyan bir bahar küləyi əsdi, tül pərdələri

qaldırıb ağır-ağır kürəklərimizə çırpdı və çılpaq bədənlərimizi ürpərtdi. İkinci mərtəbədəki mənzilin arxa otağındakı çarpayıdan arxa bağçada hikkəylə söyüşə-söyüşə futbol oynayan uşaqları gördük və bir-birilərinə söylədikləri ədəbsiz şeyləri bizim sözbəsöz həyata keçirdiyimizin fərqinə varıb sevişməmizin ortasında bir an duraraq bir-birimizə baxıb gülümsədik. Amma xoşbəxtliyimiz o qədər dərin və böyükdü ki, bayaq yerə düşən sırğanı unutduğumuz kimi, həyatın arxa bağçadan bizə göndərdiyi bu zarafatı da dərhal unutduq.

Ertəsi günkü görüşümüzdə Füsun mənə sırğasının bir tayının itdiyini söylədi. Əslində o gedəndən sonra ucunda adının baş hərfi olan sırğanı mavi mələfələrin arasında görmüş, bir tərəfə qoymaq yerinə qəribə bir instinktlə, itməsin deyə cibimə qoymuşdum.

– Burdadır, canım. – Stulun arxasına asdığım pencəyimin sağ cibinə əlimi atdım. – Aaa, yoxdur, – dedim. Bir an bir fəlakətin, bir uğursuzluğun əlamətini hiss etmiş kimi oldum, amma səhər istiyə görə başqa bir pencək geyindiyimi dərhal xatırladım. – O biri pencəyimin cibində qalıb.

– Zəhmət olmasa, sabah gətir, unutma, – dedi Füsun, gözlərini geniş açaraq. – Mənim üçün çox əhəmiyyəti var.

– Yaxşı.

Füsun bir ay əvvələ qədər hardasa varlığını belə unutduğum on səkkiz yaşlı uzaq və yoxsul qohumumdu. Mənsə otuz yaşındaydım və mənə hamının çox yaraşdırdığı Sibellə nişanlanıb evlənmək üzrəydim.